# HEYDƏR ƏLİYEVİN KİTABA VƏ KİTABXANALARA QAYĞISI

***İlahə Rəhim qızı Ələkbərova***

*AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu,*
*baş mütəxəssis*
*Səbail rayonu, İstiqlaliyyət küç.26*
*İlahelekberova@gmail.com*

***Açar sözlər:*** *kitab, gənc, bilik, lider, mədəniyyət*
***Ключевые слова:*** *книга, молодежь, знания, лидер, культура*
***Keywords:*** *book, youth, knowledge, leader, culture*

**Xülasə:** Kitablar həyatın müxtəlif sahələrində bilik və müdriklik qapısıdır. Onlar bizə başqa dünyalara səyahət etmək, başqalarının baxışlarını öyrənmək və öz düşüncə dünyamızı genişləndirmək üçün imkan yaradır. Kitabların əhəmiyyəti ölçülə bilməz, çünki onlar yalnız kağız və mətnlərdən ibarət deyil; onlar bilik, həyat təcrübəsi və müdrikliyin xəzinəsidir.

Azərbaycanın böyük şəxsiyyəti Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynayan bir liderdir. Onun şəxsiyyəti və fəaliyyəti tariximizdə dərin iz buraxmışdır. Onun mədəniyyətə, kitaba və biliyə verdiyi əhəmiyyət, milli irsimizin qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində parlaq bir nümunədir.

Heydər Əliyev kitabı sadəcə bilik mənbəyi kimi deyil, həm də milli-mənəvi dəyərlərin qorunması və ötürülməsi vasitəsi kimi qiymətləndirirdi. O vurğulayırdı ki, kitab gənclərin dünyagörüşünü genişləndirir, onların milli kimliyinin formalaşmasında və yaradıcı düşüncələrinin inkişafında mühüm rol oynayır. Bu, Ümummilli liderin gəncləri kitab oxumağa təşviq etməsi, intellektual potensiallarını artırmağa yönəlik çağırışları və mədəniyyətə verdiyi misilsiz dəyərləri ilə sübut edilmişdir.

**Резюме:** Книги — это ворота к знаниям и мудрости в различных сферах жизни. Они позволяют нам путешествовать в другие миры, учиться с точки зрения других людей и расширять наш собственный мир мыслей. Важность книг невозможно измерить, потому что это не просто бумага и тексты; они — сокровищница знаний, жизненного опыта и мудрости.

Гейдар Алиев, великая личность Азербайджана, является лидером, играющим важную роль в развитии азербайджанской культуры. Его личность и деятельность оставили глубокий след в нашей истории. Его значение для культуры, книг и знаний является ярким примером сохранения и передачи нашего национального наследия будущим поколениям.

Гейдар Алиев ценил книгу не только как источник знаний, но и как средство защиты и передачи национальных и нравственных ценностей. Он подчеркнул, что книга расширяет кругозор молодых людей, играет важную роль в формировании их национального самосознания и развитии творческой мысли. Об этом свидетельствует поощрение Национальным Лидером молодежи к чтению книг, его призывы повышать свой интеллектуальный потенциал и его беспрецедентные культурные ценности.

**Summary:** Books are the gateway to knowledge and wisdom in various areas of life. They allow us to travel to other worlds, learn from other people's perspectives, and expand our own world of thought. The importance of books cannot be measured because they are not just paper and texts; they are a treasure trove of knowledge, life experiences and wisdom.

Heydar Aliyev, the great personality of Azerbaijan, is a leader who plays an important role in the development of Azerbaijani culture. His personality and activities left a deep mark on our history. Its importance to culture, books and knowledge is a shining example of preserving and passing on our national heritage to future generations.

Heydar Aliyev valued the book not only as a source of knowledge, but also as a means of protecting and transmitting national and moral values. He emphasized that the book broadens the horizons of young people and plays an important role in the formation of their national identity and the development of creative thought. This is evidenced by the National Leader's encouragement of youth to read books, his calls to increase their intellectual potential and his unprecedented cultural values.

Heydər Əliyev çıxışlarında qeyd edirdi ki, "Kitab nəşri hər ölkənin, hər xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borculuyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdəndir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram" [1,s.5].

Kitabı mənəvi zənginliyin və elmlərə yiyələnməyin mühüm açarı hesab edən Ulu öndər daima gəncləri və ətrafındakı insanları mütaliə etməyə, kitabla həmsöhbət olmağa dəvət etmiş, həyatda kamil insan kimi yetişməyin, zəngin biliklərə yiyələnməyin yeganə yolunun mütaliədən keçdiyini hər zaman vurğulamışdır. Azərbaycan mədəniyyətinin inkişafına və milli-mənəvi dəyərlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan Heydər Əliyev, Nizami Gəncəvi, Füzuli, Xətai kimi şair və yazıçılarımızın əsərlərinin yeni nəşrlərinin geniş oxucu kütləsinə təqdim olunmasının vacibliyini daim diqqət mərkəzində saxlamışdır.

Heydər Əliyevin gənclərə verdiyi önəm, onların intellektual və mənəvi inkişafına olan diqqəti, xüsusilə onlarda kitab sevgisinin aşılanması sahəsindəki fəaliyyəti, Azərbaycan cəmiyyətinin gələcəyinin formalaşmasında mühüm təsir göstərmişdir.

Heydər Əliyev kitabı yalnız bilik mənbəyi kimi deyil, həm də milli-mənəvi dəyərlərin qorunması və ötürülməsi vasitəsi kimi qiymətləndirirdi. O, kitabın gənclərin dünyagörüşünün genişlənməsində, onların milli kimliyinin formalaşmasında və yaradıcı düşüncələrinin inkişafında əhəmiyyətini vurğulayırdı. O, gəncləri kitab oxumağa təşviq etməklə, onların intellektual potensialını artırmağa və milli irsi daha dərindən öyrənməyə yönəltmişdir: *"Kitab – insanın mənəvi qidasıdır. Oxuyan insan düşünər, düşünən insan isə yaradıcı olar"*[5, s.12].

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda kitabxana sisteminin gücləndirilməsi, modernləşdirilməsi, inkişafı və gənclər üçün əlçatan edilməsi istiqamətində mühüm işlər görülmüşdür. Onun təşəbbüsü ilə ölkədə bir çox yeni kitabxanalar yaradılmış, müasir texnologiyalarla təchiz edilmiş, gənclərin rahat şəkildə kitab oxuması üçün şərait yaradılmış və mövcud kitabxanaların maddi-texniki bazası gücləndirilmişdir [4]. Kitabxanalar yalnız bilik mənbəyi deyil, həm də gənclərin bir araya gəlib müzakirələr apardığı mədəniyyət mərkəzlərinə çevrilmişdir. Bu, gənclərin intellektual inkişafına və mütaliə mədəniyyətinin formalaşmasına böyük töhfə vermişdir. Onun Milli Kitabxanaya hədiyyə etdiyi şəxsi kitabları, kitab mədəniyyətinə verdiyi dəyərin parlaq nümunəsidir.

Bundan əlavə, Heydər Əliyev Fondunun fəaliyyəti onun mədəniyyət siyasətinin davamıdır. Fond, Azərbaycan ədəbiyyatının dünyada tanıdılması və milli-mədəni irsin təbliği istiqamətində bir çox layihələr həyata keçirmişdir [1,s.24]. Bu təşəbbüslər sayəsində Azərbaycan xalqının mədəni mirası beynəlxalq arenada daha geniş şəkildə tanınmışdır.

Azərbaycan xalqının tarixən yüksək mədəniyyətə və zəngin ədəbiyyata malik olduğunu vurğulayan Heydər Əliyev kitabın gənclər üçün əvəzolunmaz bir bilik və ilham mənbəyi olduğunu bildirirdi. O, kitabın insanların intellektual potensialını artırmaqla yanaşı, onların milli kimliyini formalaşdırmaqda mühüm rol oynadığını vurğulayırdı. Ulu öndərin nitqlərində gəncləri kitab oxumağa təşviq etmək, yaradıcı düşüncələrini inkişaf etdirmək və milli irsi dərindən öyrənmək çağırışları ön planda idi.

Heydər Əliyev kitab sərgilərinin təşkilini təşviq edərək, gəncləri mütaliəyə cəlb etməyə çalışmışdır. Bu sərgilər gənclərin müxtəlif mövzularda kitablarla tanış olmasına və onların oxuma vərdişlərinin formalaşmasına kömək etmişdir. Məhz "Heydər Əliyev ili" çərçivəsində keçirilən kitab sərgiləri gənclər arasında mütaliə mədəniyyətinin təbliği üçün mühüm platforma olmuşdur.

Heydər Əliyev deyirdi: "*Kitab xalqın milli sərvətidir. Kitab insanı kamilliyə, elmə, mədəniyyətə, insanlığa aparan yoldur.*". Bu yanaşma onun bütün fəaliyyətində, xüsusilə də təhsil, mədəniyyət və gənclərlə iş sahəsində apardığı siyasətdə açıq şəkildə özünü göstərirdi. Heydər Əliyev inanırdı ki, kitab oxuyan gənclər daha geniş dünyagörüşünə malik olur, müstəqil düşünməyi öyrənir və öz xalqının tarixini, mədəniyyətini dərindən mənimsəyir. Onun sözləri ilə desək: "*Gənclərimiz oxumalıdırlar, dünyanı tanımalı, biliklə silahlanmalı və gələcəyimizi qurmalıdırlar.*"

Heydər Əliyevin əsas ideyası aydındır: bilik, elm və mədəniyyət olmadan xalqın inkişafı mümkünsüzdür. Ona görə də kitabı təbliğ etmək, insanları mütaliəyə təşviq etmək, gənclərə oxuma vərdişi aşılamaq ən ali vəzifələrdən biridir.

Heydər Əliyevin Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsində də, misilsiz xidmətləri vardır. XX əsrin II yarısında respublikada kitabxana şəbəkələrinin inkişafı, kitabxanaların mərkəzləşdirilməsi, kitabxana fondlarının inkişafı, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması, kitabxanaların maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətində Heydər Əliyevin gördüyü işlər danılmazdır. Müstəqillik dövründə kitabxanaların qorunub saxlanılması, kitabxana işinin inkişaf istiqamətləri və dövlətin kitabxana siyasətinin formalaşmasında Heydər Əliyevin rolu böyükdür. Ulu öndər kitab və kitabxana işinin böyük mədəni əhəmiyyətini yüksək qiymətləndirmiş, onu ölkəmizin ümumi mədəniyyətinin əsas göstəricisi kimi qiymətləndirmişdir. Bu da Heydər Əliyevin yüksək elmi, mədəni və intellektual səviyyəsi ilə, bəşəri xarakter daşıyan hadisələri düzgün qiymətləndirə bilmək istedadı ilə şərtləşir. Heydər Əliyev həmişə çıxışlarında yazıçı və şairlərimizin, alimlərimizin, mədəniyyət xadimlərimizin böyük potensiala malik olduğunu bildirmiş, Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında böyük rolu olduğunu bildirmişdir.

Heydər Əliyevin kitaba və biliyə verdiyi dəyər bu gün də ölkə siyasətində, xüsusilə də gənclərlə bağlı proqramlarda öz əksini tapır. Onun qoyduğu irs əsasında gənclər arasında kitab oxumaq, bilik əldə etmək bir həyat tərzinə çevrilməkdədir.

Heydər Əliyevin gənclərə kitab sevgisini təbliğ etməsi yalnız bir siyasi çağırış deyil, eyni zamanda bir milli inkişaf strategiyası olmuşdur. Bu irs, bu gün də gənc nəslin formalaşmasında əsas istiqamətlərdən biri kimi qalır.

Heydər Əliyev təkcə böyük dövlət xadimi kimi deyil, həm də kitab sevgisinin, bilik və mədəniyyətin təbliğçisi kimi tarixə düşmüşdür. Onun bu irsi Azərbaycanın gələcək nəsillərinin bilikli, vətənpərvər və mədəniyyətli yetişməsinə xidmət edir.

Mərhum liderimizin kitab mədəniyyətinə verdiyi töhfələr sayəsində bu gün biz, milli irsimizi daha dərindən öyrənir, dəyərlərimizi qoruyur və gələcək nəsillərə çatdırırıq. Heydər Əliyev şəxsiyyəti bizə öyrətdi ki, kitabı sevən, milli mədəniyyətinə sahib çıxan hər bir insan, əslində, xalqına xidmət edir.

Heydər Əliyevin kitab sevgisi bizim üçün qiymətli bir örnəkdir. Çünki kitab, onun dediyi kimi, *"yalnız bilik mənbəyi deyil, həm də qəlbləri və dəyərləri birləşdirən əbədi bir körpüdür"* [3,s.126]. Bu kəlam illərdən süzülüb gəlsə də günümüzdə öz aktuallığını itirmir, bir növ həyatımızın, təhsilimizin, inkişafımızın şüarına çevrilir.

**Ədəbiyyat**


1. *Dadaşova, Z.C.* Heydər Əliyev və milli-mənavi dəyərlərimiz // "Kitabxana işinin inkişafında Heydər Əliyev irsinin rolu" Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş Respublika kitabxanalararası elmi-nəzəri konfransının tezisləri 18 may, 2023-cü il / tərt. ed. Tünzalə Əzizova, red. və bur. məs. Şəhla Qəmbərova; F. Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2023.- 75 s.

2. *Xələfov, A.A.* Heydər Əliyev və Azərbaycanda kitabxana işi / - Bakı: Azərnəşr, - 2006. -312s.

3. *Süleymanov, R.* Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti / - Bakı: Ləman Nəşriyyat Poliqrafiya MMC, - 2020.- 360s.

4. *Tahirov, K.* Azərbaycanda kitabxana işinin inkişafına Heydər Əliyev qayğısı / [Elektron resurs] URL: http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/118378.htm

5. Ulu öndər Heydər Əliyevin kitab və kitab nəşri haqqında müdrik fikirləri/ tərt.ed.: R.İ.Süleymanov. - Bakı: Mütərcim, - 2016. -72 s.